# BEYLƏQAN: İQTİSADİ İNKİŞAF DÖVLƏT DƏSTƏYİNİN BƏHRƏSİDİR

Son illər qədim Beyləqanda ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji kurs, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında irəli sürülən vəzifələrin yerinə yetirilməsi uğurla davam etdirilmişdir. Tarixin keşməkeşlərinin şahidi olan bu bölgə hər zaman təravətlidir, öz insanlarının zəhmətsevərliyi ilə yeniləşir, gözəlləşir, şəhər və kəndlərin, qəsəbələrin siması getdikcə tanınmaz dərəcədə dəyişilir. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəltdiyi tədbirlər sakinlər tərəfindən rəğbətlə qarşılanır. Ümumiyyətlə, rayon sakinləri yeni 2016-cı ili dəyərincə qarşılamaq, öz həyatlarını daha da gözəlləşdirməkdən ötrü var qüvvələrini sərf edirlər.

Rayon icra hakimiyyətinin 2015-ci ilin 9 ayının iqtisadi və sosial inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında bu barədə geniş bəhs olundu. Rayonun idarə və müəssisələrinin, yerli icra nümayəndəliklərinin, bələdiyyələrin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə yüksək fəallıq şəraitində keçirilən tədbirdə **rayon icra hakimiyyətinin başçısı Vaqif Abdullayev** hesabat məruzəsi ilə çıxış etdi.

Qeyd olundu ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında respublikamızın əldə etdiyi göstəricilər ətraflı təhlil olunmuş, böyük layihələr icra edilmiş, dövlətin beynəlxalq nüfuzu artmış, iqtisadi və sosial baxımdan Azərbaycan regionda ən sürətlə inkişaf edən ölkəyə çevrilmişdir.

Həmin dövr ölkənin bütün bölgələrində olduğu kimi, Beyləqan rayonunda da uğurlu nəticələrlə yadda qalmışdır. 9 ay ərzində iqtisadiyyatın əsas sahələri üzrə 124 milyon manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir. Bunun 2,9 milyon manatı sənayenin, 69,8 milyon manatı kənd təsərrüfatının, 19,7 milyon manatı tikinti-quraşdırma işlərinin, qalanı ticarət və iaşənin, nəqliyyat və rabitə müəssisələrinin payına düşür. Rayon üzrə iqtisadiyyatın bütün sahələrində ümumdaxili məhsul istehsalı üzrə 2014-cü ilin 9 ayındakına nisbətən artım qeydə alınmışdır. Bu dövrdə rayonun ticarət və iaşə şəbəkələri tərəfindən əhaliyə satılan istehlak mallarının, buna müvafiq olaraq pərakəndə əmtəə dövriyyəsinin həcmi də çoxalmışdır. Vətəndaşlara və müxtəlif təşkilatlara nəqliyyat və rabitə xidmətlərinin keyfiyyəti yüksəlmiş, xidmətlərin göstərilməsində kəmiyyət göstəriciləri yaxşılaşmışdır.



Rayonda tikinti-abadlıq və quruculuq işləri uğurla davam etdirilir. Son vaxtlar şəhərin Heydər Əliyev prospektində, magistral yolda, küçələrdə asfaltlaşdırma işi aparılmış, Şəhidlər abidəsi yeniləşdirilmişdir. 240 yerlik yeni məktəb binasının və 120 yerlik uşaq bağçasının tikintisi başa çatdırılmışdır. Körpülərdə əsaslı yenidənqurma işləri aparılmış, işıqlandırma sistemləri ən müasir avadanlıqlarla yenidən qurulmuş, Heydər Əliyev parkında, Mücirəddin Beyləqani xiyabanında və mərkəzi şəhər parkında, şəhər stadionunda yenidənqurma işləri aparılmışdır. Dövlət tərəfindən və əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 12970 kvadratmetr olan 128 yaşayış evi tikilmişdir. Küçə, dalan və döngələrin yol hissələrinə çınqıl tökülərək asfalt vurulmuş, xeyli təmir işi aparılmışdır. Rayon ərazisində minlərlə ağac əkilmiş, yolların kənarları yaşıllaşdırılmış, park və xiyabanlarda yaşıl çəmənliklər salınmışdır.

Ölkə başçısının ayırdığı əlavə vəsait hesabına yollarda əsaslı təmir işləri görülür. 9 ayda 91 kilometrdə təmir işləri aparılmış, 376 siqnal dirəyi dəyişdirilmişdir. Dünyamalılar kəndi istiqamətində yol çəkilişi davam etdirilmiş, Qarabağ kanalı üzərindəki körpü əsaslı surətdə təmir edilmişdir.

Aqrar sahə rayonun iqtisadiyyatının bel sütununu təşkil edir. Bu bölmənin işçiləri dövlətin müntəzəm olaraq göstərdiyi köməkdən ruhlanaraq, ölkədə ərzaq təhlükəsizliyinin təminatına gərəkli töhfələr verirlər. Ərzaq təhlükəsizliyi məsələsi demək olar ki, həll olunmuşdur, əhali özünü bu məhsullarla tam şəkildə təmin edir, hətta respublikanın bazarlarına xeyli məhsul çıxarılır.

2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması, dövlət başçısının "Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamına uyğun olaraq fermerlərə xeyli yardım göstərilməsi təsərrüfat həyatında həlledici rol oynamışdır. Toxumçuluğun inkişaf etdirilməsinə, mineral gübrələrin, damazlıq mal-qaranın alınmasına yönəldilmiş güzəştlər fermerlərin işində daha müsbət nəticələrə səbəb olmuşdur.

Prezidentin tapşırığı ilə rayonda pilot taxılçılıq təsərrüfatı yaradılmış, burada zəmilərdən 2014-cü ildəkinə nisbətən xeyli artıq yüksək reproduksiyalı ərzaqlıq buğda istehsal olunmuş, hektarların məhsuldarlığı 50-60 sentnerə çatdırılmışdır. Təsərrüfatlarda ötən ilin müvafiq dövründəkinə nisbətən xeyli çox tərəvəz, meyvə, bostan məhsulları istehsal olunmuşdur.

Heyvandarlıq məhsullarının istehsalı da ötən illərdə olduğu kimi, kənd təsərrüfatının aparıcı sahəsi olaraq qalır və müsbət templə inkişaf edir. Hazırda rayonun təsərrüfatlarında 57620 başa yaxın iribuynuzlu mal-qara, 296590 baş xırdabuynuzlu heyvan bəslənilir ki, burada da keçən ilin müvafiq dövrünün nəticələri ötülüb keçilmişdir. Bütün növ heyvandarlıq məhsulları istehsalında qazanılmış nailiyyətlər sevindiricidir, ət istehsalı 6290 tona, süd istehsalı 30 min tona, yumurta istehsalı isə 14 milyon 320 min ədədə çatmışdır.

Rayonda torpaqların münbitliyinin artırılması, şoranlaşmanın qarşısının alınması və suvarma tədbirlərinin genişləndirilməsindən ötrü ardıcıl iş aparılır. 316 kilometr suvarma kanalları, 235 kilometr kollektor-dren lildən təmizlənmiş, 143 kilometr kollektor-dren şəbəkəsi təmir edilmişdir.

Beyləqanda özəl bölmənin inkişaf etdirilməsində qarşıya qoyulmuş vəzifələr ilin ötən dövründə ardıcıl surətdə yerinə yetirilmişdir. Əslində qazanılmış bütün nailiyyətlər sahibkarların fədakar əməklərinin bəhrəsidir. Çünki aqrar sahədə özəl strukturlar, fermer təsərrüfatları tam üstünlüyə malikdirlər və bütün sahələri əhatə edərək, həlledici xarakter daşıyırlar. Sahibkarlara göstərilən diqqət, onlar üçün lazımi informasiya, məsləhət və digər xidmət mərkəzlərinin yaradılması hesabına rayonda istehsal və xidmət sahəsində qeyri-dövlət sektorunun xüsusi çəkisi xeyli artmışdır. Sahibkarlığın bilavasitə inkişafına rayonda fəaliyyət göstərən özəl bankların və Sahibkarlığa Kömək Milli Fondunun faydası çox olmuşdur. Belə ki, təkcə 9 ay ərzində iş adamlarına 5,3 milyon manat güzəştli kreditlər verilmişdir. Nəticədə 348 yeni iş yeri yaradılmışdır.



Əhalinin içməli suya, elektrik enerjisinə, təbii qaza olan tələbatının ödənilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Ötən aylar ərzində içməli su ilə təminatın yaxşılaşdırılması məqsədilə rayon mərkəzində və digər yaşayış məntəqələrində artezian və subartezian quyuları qazılmış, ötürücü su xətlərində əsaslı və cari təmir işləri aparılmışdır.

Əhalinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq rayon rəhbərliyinin daima diqqət mərkəzində duran məsələdir. Son vaxtlar bu sahədə buraxılmış nöqsanlar aradan qaldırılmış, hava xətlərində 1485 metr naqil, 125 yararsız dayaq dəyişdirilmiş, 151 transformator təmir edilmişdir. 15 yeni yarımstansiya quraşdırılmış, bir sıra yaşayış məntəqələrinin enerji təchizatı əhəmiyyətli dərəcədə yüksəldilmişdir. Hazırda 11040 nəfərlik ailələrə mavi yanacaq verilir. 2014-2018-ci illərdə rayonun yaşayış məntəqələrinin tamamilə qazlaşdırılması başa çatdırılacaq, növbəti illərdə isə qəsəbə və kəndlər qazla təmin ediləcəkdir. Şəhər mərkəzindəki borular və dayanmış hidrotexniki qurğular təmir edilərək işlək vəziyyətə gətirilmiş, 82 kilometr kanalizasiya, 83 kilometr su xətləri çəkilmiş, 28 su sayğacı aktivləşdirilmiş, yeni nasosxana tikilmiş, su qülləri və çənləri quraşdırılmışdır.



Son illər rayonun rabitə və telekommunikasiya sahələrində dinamik inkişaf davam etmişdir. 26 poçt şöbəsi əhaliyə nümunəvi xidmət göstərir, bütün iqtisadi göstəricilər üzrə ötən ildəkinə nisbətən irəliləyiş müşahidə olunur. 9 aylıq gəlir proqnozuna 106 faiz əməl edilmişdir. Mövcud ATS-lərin hamısı elektron tipli ATS-lərə çevrilmiş, mərkəzi, kənd və qəsəbə ATS-lərinin ümumi nömrə tutumu artırılmış, mənzillərə yeni telefon xətləri çəkilmişdir.

Hazırda rayon üzrə pensiyaçıların sayı 13290 nəfərdir. Ötən 9 ay ərzində 988 ailəyə ünvanlı sosial yardım təyin olunmuşdur. Sosial müavinət alan aztəminatlı ailələrin sayı 1318-ə çatmış, onların tərkibində olan 5917 nəfərin hər birnə 34 manat yardım ödənilir.

Təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin işinin təkmilləşdirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi, şəbəkələrinin genişləndirilməsi, ixtisaslı kadrlarla təminatının yaxşılaşdırılması istiqamətində son illər həyata keçirilən tədbirlər nəticəsində bu müəssisələrin əhaliyə göstərdikləri xidmətlərin səviyyəsi yüksəlmişdir. 54 ümumtəhsil məktəbində 12500 nəfərdən çox şagirdin təlim-tərbiyəsi ilə 1838 müəllim məşğul olur. Bu il məktəb məzunlarından 222 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Rayonda 185 çarpayılıq 4 xəstəxana, 21 ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir. Mərkəzi xəstəxananın tabeçiliyində olan bir sıra müalicə obyektlərində keyfiyyətli təmir işləri aparılmışdır. Mədəniyyət ocaqları əhalinin asudə vaxtının maraqlı keçirilməsində, maarifləndirmə işində mühüm rol oynayırlar.

Respublika rəhbərliyinin Beyləqan rayonuna, onun əməksevər əhalisinə göstərdiyi qayğı hamının gözü qarşısındadır. Sakinlər ölkəmizin inkişafına, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yol açan tədbirləri bəyənirlər və bu tədbirləri daha intensiv surətdə davam etdirmək, öz üzərlərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlməkdən ötrü var qüvvələrini səfərbər etmişlər.

***Sabir MUSTAFAYEV,***
***"Respublika".***